NEXIA INTERNATIONAL

Euro Audit

*premium quality services*



# VERGİ VƏ HÜQUQA AİD YENİLİKLƏR

## Oktyabr 2010

### MİNİMUM AYLIQ ƏMƏK HAQQI VƏ ƏMƏK PENSİYALARININ BAZA HİSSƏSİNDƏ ARTIM

Azərbaycan Respublikası Prezidentinin 31 avqust 2010-cu il tarixli sərəncamlarına əsasən, minimum aylıq əmək haqqı və əmək pensiyalarının baza hissəsi artırılaraq 85 manat müəyyən edilib.

Hər iki dəyişiklik 1 sentyabr 2010-cu il tarixindən qüvvəyə minir.

### HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA YENİ SAZİŞ

7 oktyabr 2010-cu il tarixdə BP və ARDNŞ arasında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən yeni dəniz bloku olan Şəfəq-Asiman strukturunun birgə kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında yeni saziş (HPBS) imzalanmışdır.

30 il müddətinə bağlanan HPBS-də BP və ARDNŞ-in hər birinin payı 50% təşkil edir.

### İNVESTİSİYA FONDLARI HAQQINDA QANUN

30 sentyabr 2010-cu il tarixdə Azərbaycan Respublikası Milli Məclisində İnvestisiya Fondları haqqında qanun ikinci oxunuşdan keçmişdir.

Qanun layihəsi investisiya fondları, onların idarə olunması və növlərini tənzimləyir.

### VİZA ALINMASI ÜÇÜN YENİ QAYDALAR

Azərbaycan Respublikası Prezidentinin 13 sentyabr 2010-cu il tarixli fərmanı Azərbaycana gələrkən birbaşa Xarici İşlər Nazirliyindən (XİN) viza almaq hüququ olan şəxsləri müəyyən edir.

Bunlar Azərbaycana diplomatik missiya ilə gələn xarici vətəndaşlar, bəzi dövlət orqanlarının dəvəti ilə, ailə üzvünün vəfat etməsi ilə əlaqədar və s. səbəblərdən Azərbaycana gələn əcnəbi şəxslərdir.

Bu fərmana edilən 19 oktyabr 2010-cu il tarixli düzəlişə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici şirkət rəhbərlərinin Dövlət Miqrasiya Xidməti ilə razılaşdırılmış rəsmi dəvəti əsasında Azərbaycana gəldikdə, birbaşa XİN-dən viza ala bilərlər.

Yuxarıdakı fərmanlardan aydın olur ki, digər əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycana gəlmək üçün Azərbaycan Respublikasının səfirliklərnə və ya konsulluqlarına müraciət edərək viza almalıdırlar.

**Həsən Haqverdiyev**
**İdarəedici Partnyor**
**E-mail: hasan.hagverdiyev@nexia.az**

**Euro Audit MMC – "Nexia International"a üzv şirkət**
**SAT Plaza 5-ci mərtəbə, B.Səfəroğlu küç.133, Bakı AZ1005, Azəbaycan**
**Tel: +994 12 596 69 60 | www.nexia.az**